# QUBA RAYONU ƏRAZİSİNDƏ YAYILAN MEŞƏLƏRİN VƏ MEŞƏ TORPAQLARININ EKOLOJİ VƏZİYYƏTİ

**Məmmədova S.T.**

*Bakı Dövlət Universiteti*
*ssevdaa.memmedova@gmail.com*

Artıq hamımıza məlumdur ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da meşələrin sahəsi durmadan azalır. Bu azalma həm təbii, həm də antropogen təsirlər nəticəsində baş verir. Antropogen təsir nəticəsində qırılmalar zamanı insanlar meşələrdən kor-koranə istifadə edir, düşünmədən öz gələcəyinə böyük zərbə vurur. Quba-Altıağac meşələrinə baxsaq, bu təsirləri biz aydın şəkildə görə bilərik.

Quba və Altıağac meşələri zoocoğrafi baxımdan Şərqi Qafqaz meşələrinin dağ meşələrinə aid edilir. Onların dəniz səviyyəsindən hündürlüyü 800-1700 m-dir. Burada dağ meşələrinin əsas hissəsini qabarıq formalı dağ silsilələri tutur. Altıağac meşələrinə nisbətən Qubanın dağ meşələrinin bitki örtüyü daha zəngindir və bu dağ meşələri Azərbaycanın florasının 40%-ni təşkil edir. Enliyarpaq meşələrin əsasını fıstıq, vələs və palıd təşkil edir. Bunlar çox yerdə qarışıqdır (vələsli-fıstıq, palıdlı-vələs, fıstıqlı-vələs). Quzey yamaclarda fıstıq dominantdır. Burada fıstığın çətirləri birləşərək günəşin qarşısını kəsir. Belə yerdə kol yarusu və ot döşəməsi yox səviyyəsindədir. Bunların əvəzində qalın xəzəl döşəməsi var. Amma güney yamaclarda fıstıqlı vələs, palıd, göyrüş və ağcaqayın iştirak edir. Tək-tək və kiçik sahəli şam da bitir. İkinci yarus əzgil, yemişan, zoğal, itburnu və s. kollardan ibarətdir.

Təbii və antropogen təsirlər nəinki landşaftlara, həmçinin torpaq örtüyünə də nəzərəçarpacaq dərəcədə təsir göstərir. İnsanların düzgün olmayan təsərrüfat fəaliyyəti nəticəsində təbii landşaftlar – çəmən, meşə və otlaq sahələri müxtəlif dərəcədə deqradasiyaya, o cümlədən eroziya prosesinə məruz qalmışdır. Quba rayonun ümumi sahəsi 261032 ha təşkil edir.

Bunun təxminən yarısı (49%-i) müxtəlif dərəcədə eroziyaya məruz qalmışdır.

Aparılan tədqiqat materiallarına istinadən qeyd etmək olar ki, Quba rayonu ərazisində əsasən aşağıdakı torpaq tip və yarımtipləri yayılmışdır: dağ-çəmən, dağ-meşə-qonur, dağ-meşə-qəhvəyi, bozqırlaşmış dağ-qəhvəyi, boz-qəhvəyi. Mövzumuza əsasən meşə torpaqlarını daha yaxından nəzərdən keçirək.

Dağ-meşə qonur torpaqlar Quba rayonu ərazisində meşə zonasının nisbətən üst rütubətli qurşağında dəniz səviyəsindən təxminən 10002000 m yüksəkliklərdə yayılmışdır. Bütövlükdə bu torpaqlar dağ yamaclarında inkişaf etmişdir. Dağ-meşə qonur torpaqlar əsasən fıstıq və vələs meşələri altında inkişaf etmişdir. Bu meşələr adətən çox sıx, ağaclar hündür olur. Burada ot





bitkisinə rast gəlinmir. Bu torpaqlar əsasən meşə fondu torpaqlarına aid edilir. Lakin meşələrin qırıldığı ərazilərdə bu torpaqlar qismən kənd təsərrüfatı bitkiləri altında istifadə olunur.

Dağ-meşə qəhvəyi torpaqlar Quba rayonunun orta və alçaq dağlıq ərazilərində yayılmışdır. Bu torpaqlar ot örtüyünün yaxşı inkişaf etdiyi kserofil meşələr və kolluqlar altında formalaşır. Qeyd edilən torpaqlar əsasən meşə altında yerləşir. Meşələrin qırıldığı ərazilər isə taxılçılıqda, tütünçülükdə və meyvəçilikdə geniş istifadə olunur.

Bozqırlaşmış dağ-meşə-qəhvəyi torpaqlar rayonun alçaq dağlıq və dağətəyi ərazilərində yayılmışdır. Qeyd edilən torpaqlara meşə talalarında və ya seyrək meşələr arasında ayrıayrı ləkələr şəklində rast gəlinir. Bozqırlaşma prosesi meşə bitkilərinin bozqır bitki formasiyaları ilə əvəz olunmasında və torpaq səthində çim qatının formalaşmasında özünü aydın biruzə verir. Bu prosesdə insanın təsərrüfat fəaliyyəti əsas rol oynayır. Meşələrin qırıldığı ərazilərdə insanın düzgün olmayan təsərrüfat fəaliyyəti nəticəsində bu torpaqlar bəzi yerlərdə müxtəlif dərəcədə eroziya prosesinə məruz qalmışdır.